**Scientific Bulletin**, *№ 1*, 2021, pages 71-78
Meleyke Zahir Adigozelova, a.meleyke09@gmail.com
***Institute of History named after Abbasgulu Agha Bakikhanov***
**DOI:** doi.org/10.54414/vwdj8701
**e-ISSN:** 2789-4614




# US-SYRIA RELATIONS AND SPECIFICS IN THE CONTEXT OF THE SECOND IRAQ CRISIS

## ABSTRACT

İn this article the causes of the tensions, processes and consequences of the tensions between The United States and Syria will be explored. The second Iraqi crisis has sparked tensions between Syria and the United States-one of the leading countries in the Middle East. Although both sides try to relieve the cur- rent tensions, the development of the development of the cases has shown that it is impossible. In fact, it was expectable for Damascus that a superpower like the USA would be a continuation of the operations on the Syrian border. The decisive foreign policy course of the Assad government failed to prevent this interference.

**Keywords:** S.Hussein, Syria-US competition, H.Assad, İraq crisis, coope-ration.

# İKİNCİ İRAQ BÖHRANI KONTEKSTİNDƏ ABŞ-SURİYA MÜNASİBƏTLƏRİ VƏ SƏCİYYƏVİ CƏHƏTLƏRİ

## XÜLASƏ

Məqalədə ABŞ və Suriya arasında XXI əsrin əvvəllərində başlanan gərginliyin səbəbləri, proseslərin gedişatı və nəticələri araşdırılacaq. İkinci İraq böhranı Yaxın Şərq regionunda açar dövlətlərdən biri olan Suriya və ABŞ arasında münasibətlərin soyumasına və ziddiyyətlərin meydana çıxmasına səbəb oldu. Hər iki tərəf yaranmış gərginliyi aradan qaldırmağa çalışsalar da hadisələrin inkişafı bunun mümkün olmadığını göstərdi. Təbii ki, ABŞ kimi bir super gücün Suriyanın sərhədlərində həyata keçirtdiyi əməliyyatların davamı olacağı rəsmi Dəməşq üçün gözlənilən idi. B.Əsəd hökumətinin qətiyyətli xarici siyasət kursu bumüdaxilənin qarşısını ala bilmədi.

**Açar sözlər:** S.Hüseyn, Suriya-ABŞ rəqabəti, H.Əsəd, İraq böhranı, əməkdaşlıq.

# АМЕРИКАНО-СИРИЙСКИЕ ОТНОШЕНИЯ И ОСОБЕННОСТИ В КОНТЕКСТЕ ВТОРОГО ИРАКСКОГО КРИЗИСА

## РЕЗЮМЕ

В статье рассматриваются причины, процессы и последствия напряженности в отношения между США и Сирией в начале XXI века, второй иракский кризис в отношениях между Соединённые Штатами и Сирией – одним из ключевых государств на Ближнем Востоке. Обе стороны пытались избежать напряженности по развитию событий показало невозможность этого.

Естественно для Дамаска ожидалось, что такая сверхдержава, как США, продолжили операции на сирийской границе. Решительный внешнеполитический курс правительства Асада не смог предотвратить это вмешателъство.

**Ключевые слова**: С.Хусейн, сирийско-американская конкуренция, Х.Асад, иракский кризис, сотрудничество

## GİRİŞ

XXI əsrin başlanğıcı dünya siyasətində yeni təbəllüdatların, siyası böhranların meydana gəlməsi ilə müşayiət olundu. Keçən əsrin son onilliyində artıq yarım əsrə qədər davam edən soyuq müharibə qərb sivilizasiyasının qələbəsi ilə başa çatdı. Dünya ikiqütblü dönəmdən birqütblü dünya dönəminə qədəm qoydu. ABŞ-da baş verən 11 sentyabr terror aktı dünyada yeni münaqişə ocaqlarının yaranmasına gətirib çıxartdı. Yeni konfliktlərin yarandığı regionun Yaxın Şərq olmasının bir sıra məlum olan və olmayan səbəbləri sonda ABŞ-ın hərbi qüvvələrinin 2003-ci ilin mart ayında İraqa qoşun yeritməsi ilə nəticələndi. Təbii ki, bu müdaxilə regionun əsas dövlətlərindən olan Suriya Ərəb Respublikası administrasiyası tərəfindən böyük narazılıqla qarşılandı. İkinci İraq böhranının başlanması rəsmi Dəməşq üçün arzu olunmaz vəziyyət yaratdı. Beləki, Suriya vasitəsiylə İraq neftinin daşınması bu ölkəyə böyük gəlir gətirirdi. Digər tərəfdən ABŞ-ın İraqa müdaxiləsi gələcəkdə B.Əsəd hökumətini də eyni aqibəti gözləyəcəyindən xəbər verirdi.

Corc Buş administrasiyasının Yaxın Şərq layihəsinin bir hissəsi olan İraqın işğalı Suriya-Amerika münasibətlərinə yeni mənfi çalarlar gətirərək onları həddindən artıq kəskinləşdirdi. Səddam Hüseyn rejiminin devrilməsindən sonrakı dövrdə, bu əlaqələrin şiddətlənməsinin digər əsas səbəbi, İraq problemini həll etmək istiqamətində Şam və Vaşinqtonun diametrik əks qütblü yanaşmaları oldu [3]. Belə ki, Dəməşq İraqın işğalına qarşı çıxaraq bu əməliyyatı həm İraq üçün, həm də bütün ərəb dünyası üçün fəlakət olaraq qəbul etdi. İraqın işğalından sonrakı dövrdə Suriya ilə bağlı ABŞ-ın mövqeyi daim hərbi güc təzyiqi və arasıra dialoq aparmaq cəhdlərinin çulğalaşması ilə xarakterizə olunur. Amerikan rəhbərliyinin realist düşüncəli nümayəndələri ABŞ-ın Yaxın Şərq siyasətində Suriyanı mühüm rol oynaya biləcəyini başa düşərək hesab edirdilər ki, rəsmi Dəməşq Yaxın Şərqdəki amerikan siyasətinin qarşısında duran iki əsas vəzifənin ərəb-israil münaqişəsinin sülh yolu ilə həllində və ABŞ-ın İraq dalanından çıxmasında əsas rol oynaya bilər [11].

Səddam Hüseyn rejimini zorla devirmək qərarının qəbul edilməsi və həyata keçirilməsində İsrail hökumətinin müəyyən qədər rol oynaması artıq dünya ictimaiyyəti tərəfindən qəbul olunmuş faktdır. Beləki 2001-ci il sentyabrın 11-dən etibarən başlayan qlobal antiterror mübarizəsi dalğasında ABŞ-dakı yəhudi lobbisi tərəfindən dəstəklənən İsrail hökümətі, Buş administrasiyasını daim İraqa və eyni zamanda Suriya və İrana qarşı güc tətbiq etməyə təhrik edirdi. İsrail hökumət dairələrində həmişə belə bir tezis səsləndirilirdi ki, Suriyadakı mövcud siyasi rejim dəyişilməsə, Dəməşqin İsrailə qarşı ənənəvi siyasəti olduğu kimi qalacaqdır. Məsələn, İsrailin 2002-2006-ci illərdə Müdafiə naziri olmuş Şaul Mofaz İsrail dövlətinin regionda Suriya tərəfindən mövcud olan potensial təhlükəni

aradan qaldırmaq məqsədi ilə Yaxın Şərqdəki yeni situasiyadan istifadə etməyə çalışdığını söyləmişdi [7].

ABŞ-ın İraqa müdaxiləsi ərəfəsində Pentaqonun bir sıra yeni mühafizəkar strateqləri (P. Vulfoviç, D. Feyt, D. Vays, U. Luti, R. Perl) İran və Suriyaya hərbi təzyiq göstərmək üçün müxtəlif planlar hazırlamağa başladılar. Həmin planlardan biri ABŞ-ın Yaxın Şərq regionunun "yenidən qurulması" proqramının "Fələstin problemini Bağdad vasitəsilə həll etməyə" yönəlmiş hissəsini təşkil edirdi. Hərbi təzyiq kifayət etmədiyi təqdirdə İraq ssenarisi üzrə Dəməşq və Tehranda hakim rejimlərin devrilməsi ehtimalı istisna edilmirdi [5]. Lakin bu plan Ağ Evdə, Milli Təhlükəsizlik Şurasında və Dövlət Departamentində, eləcə də Müdafiə Nazirliyinin hərbi rəhbərliyində tənqid olundu. 2003-cü ilin aprel ayının ortalarında ABŞ prezidenti Corc Buş Suriyaya qarşı hərbi əməliyyatın planlaşdırılması işlərini dayandırdı. Rəsmi Vaşinqton yeni müharibəyə başlamağa risk etmədi [1].

Qeyd etmək lazımdır ki, 1990-cı illərin sonlarında hələ Suriyanın sabiq prezidenti Hafiz Əsədin sağlığında, Suriya-İraq münasibətləri tədricən yaxşılaşmağa başlamışdı. Birinci növbədə, bu yaxınlaşma iqtisadi faktorla bağlı idi. İraq ilə ticarət və Suriya ərazisindən İraq neftinin daşınması hər il Suriyaya 1,5 milyard dollardan çox gəlir gətirirdi. İki ölkə arasında qarşılıqlı şəkildə yüksək səviyyəli rəsmi səfərlər geniş miqyas almağa başlamışdı. Suriya-İraq sərhədi açılmış, ikitərəfli ticarətin həcmi artaraq, iqtisadi əməkdaşlıq sahəsində bir sıra mühüm ikitərəfli sazişlər imzalanmışdı [4, s.145]. Bütün bu sadaladığımız faktorlardan göründüyü kimi İraq müharibəsi eyni zamanda iqtisadi baxımdan da Suriya üçün mənfi nəticələrə səbəb oldu. Kiçik neft ehtiyatlarına malik Suriya Kərkük-Banias neft boru kəməri vasitəsilə İraq neftini çox aşağı qiymətlərlə alırdı. Lakin İraqın işğalından qısa bir müddət sonra, İraq neftinin Suriya ərazisi ilə Aralıq dənizi hövzəsinə nəql edilməsi dayandırıldı, Suriya öz neft ixracını 10% azaltmağa məcbur oldu [4, s.147].

Lakin geniş iqtisadi əməkdaşlığa baxmayaraq, Suriya Amerikan və ərəb qoşunlarının İraq təcavüzünə qarşı 1991-ci il yanvarın 17-si həyata keçirilən "Səhrada tufan" əməliyyatına qatılmışdı. Məhz bu səbəbdən də, Birləşmiş Ştatlar administrasiyası elə fikirləşirdi ki, Suriya 1991-ci ildə mərhum prezident H.Əsədin prezidentliyi dövründəki kimi Amerikanın və onun müttəfiqlərinin İraqa qarşı hərbi əməliyyatlarına dəstək verəcəkdir. Lakin 2003-cü ildə vəziyyət tamamilə fərqli idi. Beləki, 1991-ci ildə İraq Küveytə hücum edən təcavüzkar rolunda çıxış etmişdi və dünya ictimaiyyəti Küveyti müdafiə edirdi. 2003-cü ildə isə hadisələr başqa cür cərəyan etməyə başladı. İndi İraq təcavüz qurbanı rolunu oynayırdı. Birləşmiş Ştatlar Bağdadda nüvə silahlarının mövcudluğunu inandırıcı şəkildə sübut edə bilmədiyindən, təcavüzkar və işğalçı kimi dünya birliyinin nüfuzlu

üzvlərinin əksəriyyətinin dəstəyini qazana bilmədi. Şübhəsiz ki, Dəməşq amerikalıların bu dəfə ümidlərini doğrultmadı. Sonuncu vəziyyət ABŞ-ın İraqdakı siyasi fəaliyyət manevrini əhəmiyyətli dərəcədə daraltdı. Xatırladaq ki, 2001-ci il sentyabrın 11-dən etibarən Birləşmiş Ştatlar dünya ölkələrinin, o cümlədən ərəb ölkələri və Suriyanın dəstəyini görürdü. Rəsmi Dəməşq Əl-Qaidə terrorçularının ələ keçirilməsində ABŞ kəşfiyyat orqanları ilə fəal əməkdaşlıq edirdi.

Səddam Hüseyn rejiminin devrilməsi və İraqın işğalından sonra Suriya hələ də Aralıq dənizində Aİ ilə qarşılıqlı faydalı ticarət sazişi imzalamamış yeganə qeyri-Avropa ölkəsi olaraq qalırdı. Bundan əlavə, Şamın qərb dünyasına müqavimət göstərməsi ağılsızlıq idi. Suriya administrasiyası özünü “Amerikanpərəstlərin əhatəsində” görürdü. Xüsusilə, Türkiyə, İordaniya və İsrail ABŞ-ın istəklərinə zidd olaraq Suriya dövlətinə qarşı loyallıq göstərə bilməzdi. Regionda rəsmi Dəməşqə müttəfiq olan dövlətlər İran İslam Respublikası və Livan respublikası idi [8].

Ancaq 2003-cü ildən sonra Ərəb baharına qədər Suriya ilə Türkiyə arasında münasibətlər ciddi şəkildə inkişaf etməyə başladı. İraq müharibəsinin iqtisadi sahədə nəticələri Suriya üçün çox ağır oldu. Beləki, kiçik neft ehtiyatlarına malik Suriya Kərkük-Banias neft boru kəməri vasitəsilə İraq neftini çox aşağı qiymətlərlə alırdı. Lakin İraqın işğalından qısa bir müddət sonra, İraq neftinin Suriya ərazisi ilə Aralıq dənizi hövzəsinə nəql edilməsi dayandırıldı ki, bu da Suriyaya öz neft ixracını 10% azaltmağa məcbur etdi. ABŞ tərəfindən təzyiqlərin artmasına baxmayaraq, B. Əsədin anti-amerikan retorikası dəyişməmişdi. Suriya İraqın ABŞ tərəfindən işğalına açıq şəkildə etiraz etməkdə idi. 2003-cü ilin aprel ayında Birləşmiş Ştatlar ABŞ-ın İraqdakı “qələbəsi”ndən erkən eyforiyaya qapıldıqda, B. Əsəd ərəbləri pan-ərəb müdafiə paktını qəbul etməyə çağırdı. Prezident B. Əsəd Yaxın Şərqdə demokratikləşmə təşəbbüsünü şərh edərkən bildirdi ki, “təkcə Suriyada deyil, bütün bölgədə heç kim amerikanın təşəbbüsünə inanmır” [7]. 2004-cü ilin may ayında Qatarin “Əl-Cəzirə” telekanalına verdiyi müsahibədə B. Əsəd bildirdi ki, “ABŞ və koalisiya qüvvələri İraqda məğlub oldular” [7]. Təbii ki, bu cür bəyanatlar Vaşinqtonun ciddi narazılığına səbəb olurdu.

ABŞ rəhbərliyi Suriya hökümətini İraqın kütləvi qırğın silahlarını gizlətməkdə və Bağdadın işğalından sonra S. Hüseyn rejiminin rəhbərlərinə sığınacaq verməkdə ittiham edirdi. Suriyanın xarici işlər naziri F. Şaraa, “terroristləri” öz ərazisindən İraqa sızmasına imkan verməsi ilə əlaqədar Suriyanın ABŞ-ın ittihamına cavab olaraq bildirdi ki, ABŞ-ın Meksika ilə sərhədini tamamilə bağlaya bilmədiyi kimi, Suriya hökuməti də İraq ilə sərhəddə bunu edə bilmir. Eyni zamanda, F. Şaraa qeyd etdi ki, terrorçuların İraq ərazisinə keçməsinə kömək etməkdə Suriyanın ittiham edilməsi “Vaşinqtonun İraqdakı vəziyyəti sabitləşdirmək iqtidarında olmadığına haqq qazandırmaq cəhdi”dir [6].

Rəsmi Vaşinqton və Dəməşq arasında münasibətlərin gərginləşdiyi bir vaxtda 2003-cü ilin may ayının əvvəlində ABŞ dövlət katibi K. Pauel Dəməşqə səfər etdi. Səfərin əsas məqsədi Suriya rəhbərliyini "ekstremist Fələstin təşkilatlarına dəstəyi dayandırması və S.Hüseyn rejimi nümayəndələrinə sığınacaq verməməsi" üçün razı salmaq idi. Səfər zamanı K. Pauel, ABŞ hökumətinin Suriyaya olan tələblərini B.Əsədə çatdırdı. O Suriya hökumətindən tələb edilirdi ki, Dəməşq S. Hüseyn rejiminə məxsus və Suriya banklarında saxlanılan 3 milyard dolları İraqa qaytarsın. Şamda olan K. Pauel ABŞ-ın Suriyaya qarşı hərbi əməliyyatlar aparmağı planlaşdırmadığını söylədi. B. Əsədlə görüşündə, ABŞ dövlət katibi bildirdi ki, İraqdakı S. Hüseyn rejiminin süqutu ilə əlaqədar olaraq, "Yaxın Şərq bölgəsində yeni bir qüvvələr nisbəti formalaşmış və arzu olunur ki, Suriya yeni reallığı tanısın və müvafiq siyasəti həyata keçirsin" [7].

2004-cü ilin yazında ABŞ-Suriya siyasi əlaqələrində yaxşılaşma istiqamətində müəyyən dəyişiklik oldu. Belə ki, 2004-cü ilin mart ayının sonunda Suriyanın Vaşinqtondakı səfiri İmad Mustafa ilə görüşən ABŞ Dövlət katibi bildirdi ki, "ABŞ Suriyanın düşməni deyil və B.Əsədin təkliflərini nəzərdən keçirməyə hazırdır" [7]. 2004-cü ilin aprelində C. Buş və K.Pauelin B. Əsədə Suriyanın Müstəqillik günü münasibətilə göndərdikləri təbrik məktubları, müəyyən dərəcədə Vaşinqtonun bu ölkə ilə münasibətləri "xeyirxah niyyətə" doğru dəyişməyi arzuladığını göstərirdi [10].

Məktubda Suriya rəhbərliyinə İraqdakı vəziyyətin normallaşdırılmasına dəstək verməsinə çağırış edilirdi. Ancaq bu cür hərəkətləri, Vaşinqtonun Suriya yönümlü siyasətinin dəyişdirməsi kimi adlandırmaq çətin olardı. Çox güman ki, bunlar ABŞ-ın İraqda dalana dirənməsi və onların Suriyanın yardımına ehtiyacı olması ilə bağlı idi. 2004-cü ilin sentyabrında BMT-nin 59-cu sessiyasında keçirilən görüşdə, K. Pauel və F. Şaraa arasında Suriyadan terroristlərin İraqa keçməsinin qarşısını almaq üçün Suriya-İraq sərhədinə nəzarət etmək məqsədilə üçtərəfli İraq - ABŞ - Suriya əməkdaşlığı məsələləri müzakirə edildi. Bu məsələlərlə bağlı praktiki tədbirləri müzakirə etmək məqsədilə 2004-cü ilin sentyabr ayının sonunda Şamda Suriya, İraq və ABŞ-dan hərbi mütəxəssislərin ilk toplantısı keçirildi [1].

Bu görüşdən sonra Suriya rəhbərliyi ümumi uzunluğu 600 km olan Suriya-İraq sərhədində 3 metr yüksəklikdə və 130 km uzunluğunda qoruyucu divar qurmağa başladı. Lakin bir faktı da qeyd etmək lazımdır ki, görülən tədbirlərə baxmayaraq ABŞ Dövlət Departamenti ilə müqayisədə Pentaqon ənənəvi olaraq Suriya-Amerika münasibətlərinin inkişaf etdirilməsi perspektivləri ilə bağlı daha çox maneə törədirdi. Belə ki, 2004-cü ilin oktyabr ayının əvvəlində D. Ramsfeld öz bəyanatında qeyd etdi ki, "İraqla sərhədin bağlanması məsələsində Suriya əməkdaşlığı barədə danışmaq hələ tezdir, çünki terrorçular hər iki istiqamətdə

keçməkdə davam edir" [2 ]. O, həmçinin təsdiq edirdi ki, suriyalılar İraqdakı banklara investisiya qoymaqdan imtina etdiyi halda, Hizbullahı maliyyələşdirməkdə İran ilə əməkdaşlığı davam etdirir və Livanda əsgərlərini saxlayır [9].

Politoloq V.M.Əhmədov bu proseslərə münasibətini bildirərək yazırdı ki, SƏR hətta Orta Şərqdə Amerika siyasətinin iki əsas vəzifəsini - İraq probleminin və ərəb-İsrail münaqişəsinin sülh yolu ilə həllində əsas rol oynaya bilər. [4s.150] Bu baxımdan Birləşmiş Ştatlar Suriyanı Yaxın Şərqdə ABŞ-ın əlverişli mövqeyi üçün təsir göstərdiyi bir vasitə deyil, regiondakı siyasi prosesdə real iştirakçı kimi qiymətləndirir. İraqda döyüşlərin başa çatmasından sonra Suriyaya sərt təzyiq göstərməsinə baxmayaraq, Birləşmiş Ştatlar başa düşürdü ki, Suriyanın maraqlarını nəzərə almadan, bölgədə kompleks problemləri həll etmək çətin olacaqdır. Bu, xüsusilə ABŞ Dövlət Departamentinin sözçüsü R.Bauçerin bəyanatında özünü təsdiq etmiş oldu. Onun bildirdiyinə görə, İraqdan Suriyaya neft nəql edilməsi məsələsi ABŞ-ın müdaxiləsi olmadan iki ölkənin maraqlarına uyğun şəkildə həll edilməlidir. 2003-cü ilin yazında Dəməşqdə olan ABŞ konqresmeni N. Rahal ABŞ-ın Suriyanın iqtisadi problemlərinə həssas olduğunu və İraqdan neftin nəqlində Şamın maraqlarını nəzərə aldığını söylədi [4, s.150].

2003-cü ildə ABŞ-ın İraqı işğal etməsi Vaşinqtonun yalnız İraq kürdləri ilə əlaqələrini dəyişdirmədi, həm də Suriya kürdləri ilə təmas imkanlarını artırdı. İraqın Suriya ilə çöl bölgələrindən keçən və nəzarət etməsi çox çətin olan, uzun bir sərhədə malik olması, Vaşinqtona 2003-cü ildən sonra Suriya kürdləri ilə daha sıx əlaqə qurmağa imkan verdi. ABŞ-ın Suriya kürdlərinə olan maraqları 2004-cü ildə Qamışlı hadisələrində özünü göstərdi. Beləki, Kürd və ərəb qrupları arasında oynanan futbol matçından sonra Qamıslı və ətrafında baş verən hadisələri əks etdirən informasiya prezident Buş və İsrail Baş naziri Netanyahu haqqında olan xəbərlərin başında yer aldı. Suriyadakı kürd qruplarına olan ABŞ (və İsrail) maraqları sonrakı illərdə tədricən artdı və 2011-ci ildə Suriyada başlanan vətəndaş müharibəsi zamanı ABŞ-ın PYD / YPG ilə əməkdaşlığı daha da artdı və önə çıxdı. PYD / YPG ABŞ-ın dəstəyi ilə Suriyanın Şərqi və Şimalında mühüm bir bölgəni nəzarəti altına aldı. ABŞ-ın PYD / YPG ilə əməkdaşlığı İŞİD ilə mübarizə aparmaq üçün genişlənsə də, bu, indiki mərhələdə Vaşinqtonun bütövlükdə Suriya siyasətinin mərkəzində olduğu kimi nəzərə çarpır. Təbii ki, burada ağıla gələn ilk sual, Vaşinqtonun PYD / YPG-yə nələri vəd etdiyinə aid olur. Belə ki, Vaşinqton-PYD / YPG əməkdaşlığının Suriyanın ərazi bütövlüyünü, ən azından Suriyanın siyasi birliyini hədəfə aldığına inanıldığı ortaya çıxmaqdadır. ABŞ-ın İraqdan sonra Suriyadakı kürdlər üçün federal bir struktur qurmağı planlaşdırdığına hədəf aldığı anlaşılmaqdadır. Kürd dövlətinin bir alt dövləti (daha sonra, Yaxın Şərqdə birləşdirilmiş, İsrail Baş nazirinin arzu etdiyi kimi formalaşmışdır) quruluşu qurmağa çalış-

dıqlarına inananların sayı da artmaqdadır. Vaşinqtonun İraqda gerçəkləşdirdiyi və indi Suriyada reallaşdırmağa çalışdığı federal bölgələr ilə Yaxın Şərqdə, İsrail Baş naziri Netanyahunun istədiyi kimi İrandan Aralıq dənizinədək uzanan bir Kürd dövlətinin infrastrukturunu qurmağa çalışdığına inananların sayı artmaqdadır.

**Nəticə:** Əgər vəziyyət yuxarıda şərh edilən kimidirsə, ABŞ-ın hesaba almadığı bir məsələ, Türkiyənin Şimali İraqdakı proseslərə (xoşlanmasa da) birbaşa qarşı çıxmadığı, hətta (istəyərək və istəməyərək) əməkdaşlıq etdiyi, ancaq Suriyadakı proseslərin Türkiyənin həyati maraqlarına birbaşa zərbə olduğuna lazımınca dəyərləndirməməsidir. Bunun əsas səbəbi PYD / YPG -nin (Vaşınqtonun bildiyi kimi) PKK terror təşkilatının Suriyada bir qolu olmasıdır. Vaşinqtonun Türkiyənin PKK-nın Suriyada (muxtar bölgə, federasiya kimi adlar altında da olsa) dövlət qurmasına razılıq verməyəcəyini görmək istəməməsi Türkiyə-ABŞ əlaqələri üçün çox perspektivsiz bir prosesdir. Vaşinqtonun, Türkiyə-ABŞ əlaqələrinin gələcəyi üçün, bir an əvvəl qəbul etməsi zəruri olan bir məsələ Türkiyənin cənub sərhədlərində Şimali İraqı və Şimal-şərqi Suriyanı içinə alacaq bir Kürd dövlətinin meydana gəlməsinə (ya bu istiqamətə gedə biləcək hər hansı bir prosesə) icazə verməyəcəyi gerçəkliyidir. Bunu Ankaranın “Fərat qalxanı”, “Zeytun budağı” və sonrakı addımları bir daha sübut etmiş oldu.

**Ədəbiyyat:**


1. Cordesman A.H. Al Qaeda and the Military Realities in Iraq. October 28, 2004 // əhttp://csis.org/ publication/al-qaqaa-and-military-realities-iraq
2. Cordesman A.H. If Its Syria: Syrian Military Forces and Capabilities. April 15, 2003 // http://csis.org/publication/if-its-syria-syrian-military-forces-and-capabilities
3. Абдель М.С. Многие иракские сценарии // Аль-Ахрам. Центр политических и стратегических исследований // http://www.ahram.org.eg/archive/MaklatIndex.asp
4. Ахмедов В.М. Роль внешнеэкономических связей в процессе модернизации экономики САР. //Ближний Восток и современность (сборник статей) - 2008. - № 38. - С. 147
5. Вахид А.М. Буш и Пауэлл и Фридман как они понимают нас? // Аль-Ахрам. Центр политических и стратегических исследований // http://acpss.ahram.org.eg/Ahram/ 2001/1/1/ANAL203.HTM
6. Волович А.А. Осложнение сирийско-американских отношений в контексте иракского кризиса. http://www.iimes.ru/rus/stat/2004/09-11-

04.htm
7. Волович А.А.Осложнение сирийско-американских отношений в контексте иракского кризиса// http://www.iimes.ru/?p=3350
8. Зинькина Ю.В.Сирия и Иран: состояние и перспективы отношений в свете глобальной политики. http://www.iimes.ru/rus/stat/2007/10-11-07.htm
9. Розов А.А. Иран и Сирия: стратегический союз // http://www.iimes.ru/rus/stat/2006/23-01- 06a.htm
10. Хасан А.Т. Видимое и невидимое в Новом Ближнем Востоке // http://acpss.ahram.org.eg/ Ahram /2001/1/1 /anal522.htm
11. Цыганок А.Д. Сирийская карта в арабо-израильском конфликте. http://www.iimes.ru/rus/stat /2006 /16-11-06.htm